# Birinci qar

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*






Birinci qar, birinci qar,
Qəlbimizin sevinci qar.
Hər dənəsi bir inci qar,
Qəlbimizin sevinci qar.
Birinci qar, nə qəşəngsən,
Göydə uçan kəpənəksən,
Ağaclarda ağ çiçəksən,
Birinci qar, birinci qar.

*Nəq.:*

Yağ dağlara, yağ bağlara,
Qoy bol olsun hər yerdə bar!

# Bulaq

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə.*






Durnagözlü sərin bulaq,
Məskənindir zümrüd yaylaq.
Maral içir, ay aman, sularından,
Kölgə salır, a bulaq, sənə qovaq.

*Nəq.:*
Sərin bulaq, sərin bulaq,
Gələcəyəm sənə qonaq.

Dağ döşündə durulursan,
Qayalardan burulursan,
Şırıldayıb axan zaman,
Elə bil ki, parlaq nursan.

Şərbətisən hər yaylağın,
Yayda olur çox yığnağın.
Ellər gəlir görüşünə,
Əskik olmur heç qonağın.

# Dağlar

*Mus.Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*






Dərələri çox dərin,
Köhlən buludlu dağlar.
Suları buzdan sərin,
Ey şabalıdlı dağlar.

*Nəq.:*
A dağlar, qarlı dağlar,
Hamıdan varlı dağlar,
A dağlar, uca dağlar,
Hamıdan qoca dağlar.

Sinən güllü-çiçəkli,
Yoncalı, biçənəkli.
Meşələri tənəkli,
Moruqlu, tutlu dağlar.

*Nəq.:*

Bülbüllərin gülşəni,
Ceyranların məskəni.
Qəhrəmanlar Vətəni,
Ey qartal yurdu dağlar.

*Nəq.:*

# Qar topu

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*






Dağlar qoyub ağ papaq,  
Yerlər olub ağappaq.  
Ağ don geyib düzənlər,  
Qara bax, a, qara bax.

Doğubdur göydə ulduz,  
Çaylar bağlayıbdır buz.  
Bahar kimi qışda da  
Səfalıdır yurdumuz.

*Nəq.:*  
Hamımızın var topu,  
Atsın uşaqlar topu.  
Gəlin bu meydançada  
Biz oynayaq qartopu.

# Qayiqda

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*






Şəfəq yanır səhər erkən,
Qayıq çıxıb göy dənizə.
Qanadlanıb, açıb yelkən,
Gəzir suda üzə-üzə.

*Nəq.:*
Seyrə çıxaq göy dənizə,
Gəzək suda üzə-üzə.

Qayıq yarır dalğaları,
Köpüklənən sular daşır.
Qayıq gəlir bizə sarı,
Sahillərə yaxınlaşır.

Bu qayıqda gəzirik biz,
Seyr edirik göy Xəzəri.
Gözəl keçir gəzintimiz,
Qayığımız dönür geri.

# Qızıl payız

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*






Payız gəlib, əsir külək,
Düşür yerə qızıl yarpaq.
Xəzəl olur hər gül-çiçək,
Qızıl rəngə dönür torpaq.

Yağış yağır narın-narın,
Almaları yuyur bağda.
Alov kimi rəngi narın
Şölə saçır hər budaqda.

Göy üzündən bulud keçir,
Dərələri tutur duman.
Qanadlanıb quşlar köçür,
Uzaqlara karvan-karvan.

# Maral

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*






Maral çıxdı bərəsindən,
Yaşıl şamlar dərəsindən.
Körpə-körpə quzuları
Atılırdı dövrəsində.

Maral gördü dağda çeşmə,
Ovçu, ona yaxın düşmə.
İçsin maral sərin sudan,
Ürəyini vurub, deşmə.

Maralımın yeri bağça,
Buynuzları haça-haça.
İnsaf olmaz ovçularda,
Vurar, qoymaz maral qaça.

# Sarmaşıq

*Mus: Səid Rüstəmov, söz: Mir Mehdi Seyidzadə*






Sarmaşığam, sarmaşığam,
Çəmənlərə mən aşiqəm.
Sarılıram budaqlara,
Bağçalara yaraşıram.

Çiçəklərim çəhrayı, ağ,
Məskənimdir hər bağça, bağ.
Yaz olanda dəstə-dəstə
Quşlar gəlir mənə qonaq.

Çəpərləri mən aşıram,
Eyvanlara dırmaşıram.
Gülşənlərə, çəmənlərə
Görün necə yaraşıram, hey!

# Şəhərimiz

*Mus.: Səid Rüstəmov, Söz.: Mir Mehdi Seyidzadə*

**Allegretto**




Yer üzündə şəhər olmaz
Bizim gözəl şəhər kimi.
Gecələri işıqlıdı
Al Günəşli səhər kimi.

*Nəq.:*
Bakı, canım Bakı,
Fəxrim, şanım Bakı!
Döyünən ürəyim,
Canım Bakı, qanım Bakı!

Abidələr qalxıb göyə
Hər meydanda, meydançada.
Gülümsəyir qərənfillər,
Qızılgüllər hər bağçada.

# Uçun, quşlar!

*Mus.: Səid Rüstəmov, söz.: Mir Mehdi Seyidzadə*




Uçun, quşlar, bizim bağa,
Cəh-cəh vurub oxumağa.
Sıx yarpaqlı ağaclarda
Qonun yaşıl bir budağa.

Bənövşələr pıçıldaşır,
Sizə nəğmə çox yaraşır.
Quşlar nəğmə oxuyanda
Sevincimiz aşır-daşır.

Çiçəklənib gülöyşə nar,
Çiçəklənib şaftalılar.
Uçun, quşlar, bizim bağa,
Nəğmə deyin, gəlib bahar.